**Mirzə M.**Dünyaya baharda göz açdı // Respublika. - 2024. - 20 mart. - **№ 62**. - S. 10.

Bu gənclər Azərbaycan dövlətinin iftixarıdır, qürurudur. ...Ən ali rütbədir şəhidlik. "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı dilimizin əzbəridir hər zaman... "Vətən daşı olmayandan, olmaz ölkə vətəndaşı!" deyirdi böyük şairimiz Məmməd Araz.

1991-ci ilin baharın ilk günündə - mart ayının 20-də doğulub Vətən müharibəsi şəhidimiz Novruz Məmmədov. Elə bu münasibətlə də adını Novruz qoyublar. İnqilab ata, Şəfiqə ana haradan biləydilər ki, 29 il sonra şəhid valideyni olub, şərəfli bir adı daşıyacaqlar.

Novruz Sumqayıt şəhərində dünyaya göz açıb. Sumqayıt şəhər Hacı Zeynalabdin Tağıyev qəsəbə 6 saylı tam orta məktəbdə təhsil almışdır. Novruz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər idarəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılmışdır. Xidmətini başa vuran Novruz müddətdən artıq hərbi qulluqçu-sürücü olaraq xidmətinə davam edir. Vətən müharibəsində kəşfiyyatçı və snayper olaraq iştirak etmişdir.

Polad Həşimovu özünə örnək bilən Novruz dostcanlı, qorxmaz, igid oğul idi. Novruz 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli rayonun azad olunması uğrunda gedən döyüşlərdə iştirak edir, 24 oktyabrda şəhidlik zirvəsinə yüksəlir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən Novruz Məmmədov ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" medalları ilə təltif edilir.

Vətən müharibəsində tarix yazan qəhrəman Ordumuz, əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya nümayiş etdirdi. Qələbəyə öz qanları ilə imza atan şəhidlərimiz bizlərə ömür boyu haqqında danışacağımız dastan qoyub getdilər.